## Oruc Dadaşi Elman

### Fərağında Sənin

Gecə - gündüz yanıram odlu fərağında sənin
Yaralı od quşuyam təkcə marağında sənin

İşığın qaynağısan, göz sənə düşcək qamaşır
Kəpənək dək dolanam, keşgə qırağında sənin

Gecənin arxa üzün, çəkmədin aşıq utanar
Bilirəm, yoxsa günəş nurdu çırağında sənin

Ürəyim müshəfinin, bir sözü var gizli deyil
Sözü sənsən, sözünün sirri varağında sənin

Bəzənib sevgi adından ürəyim duyğuları
Duyanım təkcə özünsən ki yarağında sənin

Demə sənsiz dolanır çərxi fələk şamü- səhər
Uca mənzumədi nəzmilə sorağında sənin

Yaşamım, sən günəşin kölgəsinin istisidir
Daranır könlüm evi, gündə darağında sənin

Səni *Elman* sevəli düşdü məhəbbət gölünə
Biçilir həsrətimin dərdi orağında sənin